# Xaçmazlılar zəfər bayramını qeyd ediblər



Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu gecə xalqa müraciət edərək şanlı qələbə xəbərini verməsindən sonra xaçmazlılar da zəfər bayramını qeyd etməyə başlayıblar.

AZƏRTAC xəbər verir ki, yüzlərlə rayon sakini Xaçmaz şəhərinin küçələrində Ordumuzu, Ali Baş Komandan İlham Əliyevi dəstəkləyən şüarlar səsləndirib, bayraqlarla bəzənmiş avtomobillərlə yürüş ediblər.

Daha sonra şəhərin mərkəzində Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gələn rayon sakinləri bir-birini Böyük Qələbə münasibətilə təbrik edib, sevinclərini bölüşüblər.





Azərbaycan.- 2020.- 11 noyabr.- S.12.